UOT 74.03

**Təranə Şəmistan qızı Paşayeva**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0001-1201- 3740
E-mail: terane.pashayeva.82@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).212-215

# SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN PEDAQOJİ FƏALİYYƏTİ VƏ MÜƏLLİMLİK İRSİ

**Terane Shamistan Pashayeva**
doctorial student in the program of doctor of philosophy at
Institute of Education of the Republic of Azerbaijan

# SAFARALI BEY VALIBAYOV'S PEDAGOGICAL ACTIVITY AND TEACHING HERITAGE

**Тарана Шамистан гызы Пашаева**
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

# ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И УЧИТЕЛЬСКОЕ НАСЛЕДИЕ САФАРАЛИ БЕКА ВАЛИБЕКОВА

**Xülasə.** Təhsil tarix boyu insanın ən əsas və mühüm elementlərindən biridir. Təhsil fərdlərə öz potensiallarını inkişaf etdirməyə, bilik və bacarıqlarını artırmağa, cəmiyyətdə fəal rol oynamağa kömək edən bir prosesdir. Təhsil cəmiyyətlərin inkişafında və tərəqqisində mühüm rol oynayır və tarix boyu bir çox mühüm pedaqoqlar bu sahədə təsirli töhfələr vermişlər. Tədqiqat işində Səfərəlibəy Vəlibəyovun yaradıcılığına diqqət yetirilir. Vəlibəyov maarif və təhsil sahəsində mühüm tədqiqatlar aparan maarifçi kimi tanınır. Onun təhsil, pedaqoji metodlar və tərbiyə fəaliyyəti haqqında anlayışı şagirdlərin inkişafına və öyrənilməsinə töhfə vermiş, təhsil sahəsində mühüm iz qoymuşdur. Bu tədqiqat Vəlibəyovun yaradıcılığını, onun təhsil və təlimə təsirini araşdıraraq təhsil sahəsinə töhfə vermək məqsədi daşıyır.
***Açar sözlər**: təhsil, Səfərəlibəy Vəlibəyov, pedaqoq*

**Abstract.** Education is one of the most basic and important elements of a person throughout history. Education is a process that helps individuals develop their potential, increase their knowledge and skills, and play an active role in society. Education plays an important role in the development and progress of societies, and throughout history, many important educators have made effective contributions in this field. Valibayov is known as an educator who conducts important researches in the field of education and education. His understanding of education, pedagogical methods and educational activities contributed to the development and learning of students and left an important mark in the field of education. This study aims to contribute to the field of education by examining Valibayov's creativity and its impact on education and training.
***Keywords:** Education, Safaralibey Valibeyov, pedagogue*

**Аннотация.** Образование является одним из самых основных и важных элементов личности на протяжении всей истории. Образование – это процесс, который помогает людям развивать свой потенциал, расширять свои знания и навыки и играть активную роль в обществе. Образование играет важную роль в развитии и прогрессе общества, и на протяжении всей истории многие выдающиеся педагоги внесли эффективный вклад в эту область. Велибеков известен как педагог, который проводит важные исследования в сфере образования и воспитания. Его понимание образования, педагогических методов и образовательной деятельности способствовало развитию и обучению студентов и оставило важный след в сфере образования. Целью данного исследования является внести вклад в сферу образования путем изучения творчества Велибекова и его влияния на образование и обучение.
***Ключевые слова:** образование, Сафаралибей Велибеков, педагог*

Səfərəli bəy Vəlibəyov Zaqafqaziya Müəllimlər Seminariyasının (ZMS) Azərbaycan şöbəsi fəaliyyət göstərdiyi 40 il ərzində 250-dən artıq əsl xalq müəllimi hazırlamışdır. Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Əliş bəy Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd bəy Acalov, Teymur bəy Bayraməlibəyov, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyli, Azad Əmirov, Əhmədağa Mustafayev, Yusif Qasımov, Əli Qəmərli, Müseyib İsayev, Əhməd Seyidov və başqaları müəllimlik peşəsinin vurğunu olmuş, xalqını təhsil nuru ilə işıqlandıran elm, maarif, mədəniyyət və incəsənət carçıları kimi çoxşaxəli fəaliyyət göstərmişlər. Bu insanların hər biri tarixi şəxsiyyət, sənətkar, ustad səviyyəsinə qalxmışdır [3, s. 145–150].

Seminariyanın məzunları içərisində Səfərəli bəy Vəlibəyovun xidmətləri xüsusi vurğulanmalıdır. O, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on səkkiz ilini pedaqoji işə sərf etmişdir. Bu müddət ərzində Səfərəli bəy onlarla istedadlı gənc yetişdirmişdir ki, həmin gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa namusla xidmət etmişlər. C. Məmmədquluzadə, N. Nərimanov, S. S. Axundov və bir çox başqaları ibtidai təhsillərini S. Vəlibəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini həmişə böyük məhəbbət hissi ilə yad etmişlər [5, s. 73–75].

Səfərəli bəy Şeyx Həsən oğlu Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir. 1875-ci ildə Şuşa dördsinifli şəhər məktəbinə daxil olmuş və 1879-cu ildə buranı bitirmişdir. Həmin ildə S. Vəlibəyovun həyatında əlamətdar bir hadisə baş vermişdir. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinə şagird toplamaq məqsədilə Şuşaya gələn A.O. Çernyayevski gənc Səfərəli ilə söhbət aparmış, hazırlıqlı olduğunu görüb onu seminariyanın ikinci sinfinə qəbul etmişdir [4, s. 212].

1879–1893-cü illərdə seminariyanın Azərbaycan şöbəsini A. O. Çernyayevski idarə edirdi. O, qabaqcıl fikirli, öz işini sevən müəllim kadrların hazırlanmasına xüsusi əmək sərf etmişdir. Şagirdlərə tarix və coğrafiyadan dərs deyirdi. Müəllim çatışmazlığına görə A. Çernyayevski S. Vəlibəyovu öz yerinə hazırlayırdı. Səfərəli bəy hələ şagird ikən müəllimi Çernyayevskiyə yaxından kömək göstərir, onun *Vətən dili* (I hissə) kitabının hazırlanmasına xüsusi əmək sərf edirdi [3, s. 201].

1881-ci ildə seminariyanı bitirən S. Vəlibəyov müəllim kimi burada fəaliyyətə başlayır və 1896-cı ilə qədər seminariyada işləyir. Səfərəli bəy əsas pedaqoji fəaliyyəti ilə yanaşı, seminariyanın ictimai işlərində də fəallıq göstərirdi. O, şagirdlərin sinifdənkənar məşğələlərinə böyük fikir verirdi. Gənc müəllim ictimai və pedaqoji fəaliyyətini yayda da davam etdirirdi. Adətən tətil zamanı Şuşaya dincəlməyə gələrkən burada uşaqlara pulsuz dərs deyər, onları orta və ali məktəblərə daxil olmaq üçün hazırlayardı. Şuşa və ətraf kənd məktəblərində dərs deyən müəllimləri toplayar, onları sövti üsulla dərs demək metodikası ilə tanış edirdi. Bu nəcib işinə görə o, hətta Qafqaz dairəsi popeçiteli tərəfindən mükafatlandırılmışdı [4, s. 213; 8, s. 47].

Səfərəli bəy Vəlibəyov Azərbaycan tarixində böyük bir müəllim və pedaqoq idi. O, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində öz fəaliyyəti ilə geniş təsir göstərmişdir. Müəllimlik fəaliyyəti zamanı Vəlibəyov bir çox tədris proqramları və metodikalar hazırlayaraq təhsil sahəsində mühüm rol oynamışdır [1, s. 55–60]. Onun pedaqoji baxışları milli dilin və milli-mənəvi dəyərlərin qorunmasına əsaslanır, Azərbaycan dilinin qrammatikasının düzgün və məqsədyönlü şəkildə tədrisini önə çəkirdi [9, s. 28–29].

Səfərəli bəy Vəlibəyovun müəllimlik fəaliyyəti yalnız Azərbaycan maarifçilik tarixində deyil, həm də ədəbiyyat və poeziya sahəsində geniş yayılma qazanmışdır. O, yazdığı ədəbi əsərlər və şeirlər vasitəsilə şagirdlərini təsirləndirir, onların dil və ədəbiyyat biliklərini artırır, tədrisdə ədəbiyyatın və poeziyanın gücünü xüsusi vurğulayaraq musiqi və incəsənətə də yer verirdi [1, s. 55–57]. Vəlibəyov sənətə əsaslanan tədris metodu ilə şagirdlərin yaradıcılığını inkişaf etdirməyə çalışır, dərs prosesində interaktiv və müzakirə əsaslı yanaşmalardan istifadə edirdi [9, s. 28–29].

Onun pedaqoji prinsipləri dövrün şərtlərinə uyğun olmaqla, yenilikçi və məqsədəuyğun idi. Vəlibəyov şagirdlərinin fəal iştirakını təmin

edir, onların fikirlərini sərbəst ifadə etməsinə şərait yaradır, sağlam və balanslı həyat tərzi qurmağa yönəldirdi [7, s. 118–120]. O, tədrisdə milli-mənəvi dəyərlərə, bədən və ruh sağlamlığına, mədəniyyət və incəsənətə xüsusi diqqət yetirirdi ki, bu da şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayırdı [6, s. 101–103].

XIX əsrin 90-cı illərində Qafqaz təhsil orqanlarının irticaçı rəhbərləri Azərbaycan və gürcü dillərini seminariyanın tədris proqramından çıxarmağa cəhd etdikdə, S. Vəlibəyov A. O. Çernyayevski, Ə. Axundzadə və N. Lomouri ilə birlikdə bu mürtəce siyasətə qarşı çıxmış, prinsipial mövqe nümayiş etdirmişdir. Onun seminariyadan uzaqlaşdırılmasının səbəblərindən biri də məhz bu mövqeyi olmuşdur [4, s. 212–213].

Vəlibəyov müasirləri arasında yalnız müəllim kimi deyil, həm də görkəmli maarifçi, metodist, tərcüməçi və publisist kimi tanınmışdır. Onun A. O. Çernyayevski ilə birlikdə hazırladığı *"Vətən dili"* dərsliyi, "Qüdrəti-xuda", "Üsuli-cədid", "Xəzinəyi-əxbar" kimi əsərləri uzun müddət Azərbaycan məktəblərində geniş istifadə olunmuşdur [3, s. 201; 5, s. 74]. O, həmçinin "Ziyayi-Qafqaziyyə", "Tərcüman", "Kəşkül", "Kaspi" kimi qəzetlərdə çıxış edərək dövrün ictimai-ədəbi hadisələrinə münasibət bildirmiş, qabaqcıl maarifçi-demokrat ideyalarını təbliğ etmişdir [8, s. 47–48].

Onun pedaqoji fəaliyyətində İsmayıl bəy Qaspirinski ilə görüşü xüsusi yer tutur. Firidun bəy Köçərli ilə birlikdə Baxçasaraya səfəri zamanı Vəlibəyov Qaspirinskinin yeni üsullu məktəbi ilə yaxından tanış olmuş və nümunə dərsi ilə öz təcrübəsini bölüşmüşdür [2, s. 38]. Bu görüş onun pedaqoji baxışlarının formalaşmasında mühüm rol oynamışdır.

Vəlibəyovun təşəbbüsü ilə 1883-cü ildə Şuşada açılan məktəb, həmçinin onun hazırladığı oxu kitabları Azərbaycan məktəb və pedaqoji fikir tarixində yeni mərhələ yaratmışdır. Burada tətbiq edilən səs üsulu (sövti metod) ilə yanaşı, müəllimlər üçün metodik göstərişlərin verilməsi də onun pedaqoji irsinin mühüm istiqamətlərindən idi [4, s. 214].

XIX yüzilliyin əvvəllərindən XX əsrin 20-ci illərinə qədər hazırlanmış dərsliklərin əksəriyyəti ərəb əlifbası ilə yazıldığından müasir dövrdə tədqiqatçıların böyük bir qismi bu mənbələri orijinaldan oxumaqda çətinlik çəkir. Digər tərəfdən, həmin dərsliklərin çoxu nadir nümunələr olduğundan onların həm Azərbaycanda, həm də MDB məkanında axtarılıb tapılması xüsusi zəhmət və uzunmüddətli araşdırma tələb edir [4, s. 211–214]. Belə əsərlərin transliterasiya və faksimile yolu ilə yenidən çapı, yəni müasir latın qrafikasına uyğunlaşdırılaraq oxuculara təqdim olunması mühüm elmi-pedaqoji əhəmiyyət kəsb edir.

Bu cür işlərin başqa bir önəmli cəhəti onların praktik tətbiq imkanları ilə bağlıdır. Belə ki, bu gün pedaqoji universitetlərdə, kolleclərdə və texnikumlarda tədris olunan *Azərbaycan məktəb və pedaqoji fikir tarixi* kursunun proqramında məhz sövti üsul əsasında hazırlanmış dərsliklər ayrıca yer tutur və pedaqoji ixtisas üzrə təhsil alan hər bir tələbə həmin dərsliklərin məzmununu və tərtib prinsiplərini öyrənməlidir [3, s. 198–202].

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan dilinin tədrisi ilə bağlı hazırlanan dərsliklərdən biri – 1839-cu ildə Tiflisdə nəşr edilən *"Təmsillər və hekayələr"* – sonradan erməni müəllifləri tərəfindən mənimsənilərək 1967-ci ildə İrəvanda çap edilən *"Erməni kitabı"*na daxil edilmişdir (I cild, s. 248) [5, s. 74–75]. Bu fakt göstərir ki, Azərbaycan dilinin tədrisi üçün hazırlanmış ilk mənbələrin sistemli şəkildə toplanaraq transliterasiya olunması və müasir oxucular üçün əlçatan edilməsi zəruridir.

Azərbaycan Beynəlxalq Universitetində fəaliyyət göstərən *"Təhsilin aktual problemləri"* elmi-tədqiqat laboratoriyasında son illərdə bu istiqamətdə mühüm işlər görülmüşdür. Xüsusilə, 2007-ci ildə A. O. Çernyayevskinin 1882-ci ildə Tiflisdə nəşr etdirdiyi *"Vətən dili"* dərsliyinin birinci hissəsi latın qrafikasında yenidən çap edilmişdir. 193 səhifədən ibarət bu nəşrə AMEA-nın həqiqi üzvü, professor Vasim Məmmədəliyev ön söz yazmış, kitabın redaktoru professor Kamandar Şərifli, lüğətin müəllifi isə Kəminə Həvil qızı olmuşdur [5, s. 76].

Azərbaycan dilində tərtib edilən oxu kitabları içərisində S. Vəlibəyovun 1888-ci ildə Tiflisdə *"Kəşkül"* qəzetinin mətbəəsində çap etdirdiyi risalə ayrıca dəyərə malikdir. Rusca titulunda *"Knijka dlya samostoyatelnoqo çteniya na tatarsko-azerbaydjanskoy nareçii"*, Azərbaycan dilində isə *"İbtidai məktəb şagirdlərinə məxsus və hüsnü-əxlaqa dair Azərbaycan dilində oxu risaləsi"* adlanan bu kitabça təlim-tərbi-

yə baxımından əxlaqi-mənəvi mətnlərdən ibarət idi [1, s. 59–60]. Epiqraf kimi "Qüdrəti-Xuda" ifadəsinin seçilməsi, əsərin dini-mənəvi dəyərlərlə yanaşı maarifçi ideyaları da özündə birləşdirdiyini göstərirdi.

Kitabçaya Cənubi Qafqaz məmləkətlərinin müftisi Hüseyn Əfəndi Qayıbov və Şeyxülislam Axund Mirzə Hüseyn Tahirov tərəfindən verilmiş müsbət rəy onun pedaqoji əhəmiyyətini daha da artırmışdır. Burada uşaqların savadlanması ilə yanaşı, əxlaqi-mənəvi tərbiyənin də zəruriliyi vurğulanırdı [7, s. 119].

**Problemin aktuallığı.** Müasir dövrdə təhsil islahatlarının dərinləşməsi, milli pedaqoji irsin öyrənilməsinin aktuallığı və tarixi müəllimlik ənənələrinin yenidən dəyərləndirilməsi kontekstində Vəlibəyovun pedaqoji görüşlərinin araşdırılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Onun müəllimlik prinsiplərinin – təlim və tərbiyənin vəhdəti, şagird şəxsiyyətinə hörmət, maarifçilik ideyalarının tədrisdə tətbiqi – bu gün də pedaqoji nəzəriyyə və praktikada aktual olaraq qalması tədqiqatın aktuallığını daha da gücləndirir. Eyni zamanda, Vəlibəyovun fəaliyyəti bölgə məktəblərinin inkişafı, qadın təhsilinin təşviqi və kənd maarifinin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Buna görə də onun müəllimlik irsinin öyrənilməsi həm Azərbaycan pedaqogikasının tarixində boşluqların doldurulmasına, həm də müasir tədris prosesinə metodoloji töhfə verməsinə imkan yaradır.

**Problemin yeniliyi.** Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti haqqında indiyədək aparılan araşdırmalar əsasən maarifçilik hərəkatı kontekstində ümumi şəkildə təqdim olunmuşdur. Lakin onun müəllimlik prinsipləri, tədris metodları və pedaqoji irsi ilk dəfə olaraq bu tədqiqatda sistemli şəkildə təhlil edilir, qadın təhsili və bölgə məktəblərinin inkişafındakı rolu ayrıca araşdırılır. Eyni zamanda, Vəlibəyovun milli-mənəvi dəyərlərə əsaslanan pedaqoji baxışlarının müasir təhsil nəzəriyyələri ilə müqayisəli təhlili və praktik tətbiq imkanlarının göstərilməsi problemin əsas elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Səfərəli bəy Vəlibəyovun müəllimlik irsinin araşdırılması yalnız pedaqoji tarix üçün deyil, həm də müasir təhsil sistemi üçün mühüm praktik əhəmiyyət kəsb edir. Onun tədris və tərbiyə prinsipləri – şagirdlərin şəxsiyyətinə hörmət, milli-mənəvi dəyərlərin qorunması, dünyəvi elmlərə marağın artırılması və qadınların təhsil almasının təşviqi – bu gün də aktualdır. Bu baxımdan, əldə olunan nəticələr müəllim hazırlığı proqramlarında, pedaqoji kadrların peşəkar inkişafında, xüsusilə də kənd və region məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsində tətbiq oluna bilər. Həmçinin, Vəlibəyovun pedaqoji irsindən istifadənin müasir dərslik və metodik vəsaitlərin hazırlanmasında, milli təhsil strategiyasının təkmilləşdirilməsində və şagirdlərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində real praktik töhfə verməsi mümkündür.

**Ədəbiyyat:**

1. Babayev, N. Səfərəlibəy Vəlibəyovun əsərləri və tərbiyə fəaliyyəti / N. Babayev. – Bakı: İdman, 2006. – 311 s.
2. Bağırov, Ə. Görkəmli maarif xadimi Səfərəli Vəlibəyov / Ə. Bağırov // Azərbaycan Məktəbi. – 1962. – № 7. – s. 38.
3. Əhmədov, H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H. Əhmədov. – Bakı: Elm və Təhsil, 2014. – s. 211–214.
4. Əhmədov, H.M. Azərbaycan məktəbi / H.M. Əhmədov. – Bakı: Maarif, 2006. – 366 s.
5. Əhmədov, Q. Azərbaycan dili müəllimləri tarixindən: Səfərəlibəy Vəlibəyov / Q. Əhmədov. – Bakı: Maarif, 2007. – 387 s.
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. – Bakı: Pedaqogika, 2004. – 411 s.
7. Hacıyev, M. Azərbaycan məktəb sistemində tərbiyə metodları / M. Hacıyev. – Bakı: Elm və Təhsil, 2014. – 224 s.
8. Hacıyev, V. Səfərəlibəy Vəlibəyovun pedaqoji fəaliyyətinin tarixi əsasları / V. Hacıyev // Təhsil və Tədris Elmləri. – 2009. – № 2. – s. 44–52.
9. İbrahimov, V. Azərbaycan məktəblərində təhsil və tərbiyə: Səfərəlibəy Vəlibəyov / V. İbrahimov. – Bakı: İdarəetmə, 2010. – 201 s.
10. İbrahimov, V. Səfərəlibəy Vəlibəyovun tərbiyə sistemi / V. İbrahimov // Təhsil və Tədris Elmləri. – 2015. – № 3. – s. 27–34.

**Redaksiyaya daxil olub:** 22.09.2025